

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 iyun 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 24 (3587)

# DOST ÖLKƏ İLƏ TARİXİ BAĞLAR DAHA DA GÜCLƏNİR



Vətən savaşından sonra beynəlxalq nüfuzu daha da güclənən ölkəmizin bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünya düzəninə təsir edən dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Regionda olduğu kimi dünyada da sülhə töhfə verməyə hazır olan Azərbaycan Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistanla da münasibətlərdə, diplomatik fəaliyyətin möhkəmlənməsində qərarlı addımlar atır.

Ölkə Prezidenti İlham Əliyevin iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfəri də hər iki ölkə arasında münasibətlərin gələcək inkişafının perspektivlərini indidən gözlər önünə sərir.

Səfər zamanı dövlətimizin başçısı Özbəkistanda ulu öndər Heydər Əliyevin xatirəsinin sevgi və hörmətlə yad edildiyini xüsusi qeyd edərək deyib: “Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir”.

Danışıqlar zamanı Özbəkistana səfərini sıçrayış xarakterli səfər adlandıran ölkə başçımız bildirib ki, müzakirə olunan mövzular həm mahiyyətinə, həm formasına, həm məzmununa və gəlinən qərarlara əsasən münasibətlərin gələcək inkişafı üçün əsas olacaq.

Səfər çərçivəsində dövlət başçımız strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı beynəlxalq fəaliyyətin genişləndirilməsini özündə əks etdirən siyasi Bəyannamənin çox qlobal xarakter daşıdığını, mahiyyətcə gələcək fəaliyyətin yol xəritəsi olduğunu qeyd edib.

Bu Bəyannamədə ölkəmizin xarici siyasətinin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib.

Danışıqlar zamanı ölkə başçımız əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında işbirliyinin dərinləşməsi ilə bağlı layihələr barəsində əldə edilən razılaşmaların ölkələrimiz və xalqlarımız arasında daha güclü əməkdaşlıq üçün gözəl imkanlar yaradacağını diqqətə çatdırıb. Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığın xüsusən prioritet əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Səfər zamanı işğaldan azad edilmiş ərazilərdə Özbəkistanın məktəb tikintisinə sərmayə qoymaq istəyi münasibətlərin inkişafında yeni təşəbbüs kimi qiymətləndirilib. Yeri gəlmişkən, danışıqların əsas mövzularından biri də Qarabağın bərpası və Özbəkistanın Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsində iştirak perspektivləri olub.

# Daxili işlər naziri vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 21-də Şirvan Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili işlər naziri əvvəlcə Şirvan şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.



Sonra Şəhər Polis Şöbəsinin inzibati binasında Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı rayonlarından gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şirvan şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib.

Xidmətə qəbulun şərtlərinə uyğun gələn 95 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 18-i Vətən müharibəsi iştirakçısı, 1-i isə şəhid ailəsinin üzvüdür.

Sonra daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan şəhər və rayonlarının polis rəisləri ilə əməliyyat müşavirəsi keçirərək onlardan bölgədə ictimai asayişin və təhlükəsizliyin daha da möhkəmləndirilməsini, vətəndaş müraciətlərinə obyektiv baxılmasını və qəbulu işinin düzgün təşkilini tələb edib.





# Nazir Vilayət Eyvazov İranın Narkotiklərlə Mübarizə Polisinin rəisini qəbul edib



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iyunun 20-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Hüquq Mühafizə Qüvvələrinin Komandanlığının Narkotiklərlə Mübarizə Polisinin rəisi, briqada generalı Məcid Kəriminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir V.Eyvazov xalqlarımız arasında tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu vurğulayaraq Azərbaycan-İran münasibətlərinin dinamik və məhsuldar şəkildə inkişaf etdiyini, bu əməkdaşlığın strateji xarakter daşıdığını qeyd edib. Daha sonra iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrə toxunan nazir bildirib ki, qarşılıqlı fəaliyyəti tənzimləyən normativ-hüquqi baza mövcuddur və bu, daha sıx əməkdaşlığa və cinayətkarlıqla mübarizədə birgə praktiki tədbirlər həyata keçirməyə imkan yaradır. O, belə görüşlərin transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən bəşəri bəlaya çevrilmiş narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə səylərimizin birləşdirilməsi üçün geniş imkanlar yaratdığını, qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qanunsuz miqrasiyaya qarşı mübarizədə əməkdaşlığın böyük potensiala malik olduğunu, yeni istiqamətlərin müəyyənləşdirilməsinin zəruriliyini, ikitərəfli əlaqələrin genişləndirilməsində rəhbərlik etdiyi qurumun da maraqlı olduğunu vurğulayıb.



Nazir qonaqlara Azərbaycandakı mövcud kriminogen vəziyyət haqqında qısa məlumat verib, respublikamızda demokratik prinsiplərin möhkəmləndirilməsi, ictimai münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi sahəsində görülən işləri qeyd edib və bildirib ki, hüquq mühafizə orqanları sıx, qarşılıqlı əlaqədə mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə, ekstremizmə, separatizmə, silahların və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı kompleks tədbirlər həyata keçirirlər.

İran İslam Respublikasının Hüquq Mühafizə Qüvvələrinin Komandanlığının Narkotiklərlə Mübarizə Polisinin rəisi, briqada generalı Məcid Kərimi səmimi qəbula görə minnətdarlığını bildirib və qeyd edib ki, həqiqətən belə səfərlər, imzalanmış sazişlərin müddəalarının yerinə yetirilməsi eyni dinə, oxşar mədəniyyətə və tarixi köklərə malik hər iki dost ölkənin mənafelərinə tam uyğundur, bütün sahələrdə, o cümlədən təhlükəsizlik, iqtisadi münasibətlər və digər məsələlərdə əlaqələrin daha da inkişaf etdirilməsinə kömək göstərir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

# MİLLİ QƏHRƏMANIN XATİRƏSİ YAD EDİLİB





**Vətən torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan polis əməkdaşı, Azərbaycanın Milli Qəhrəmanı Elşad Hüseynovun anım günü ilə əlaqədar şəhidin büstü ziyarət edilib, önünə tər güllər düzülüb.**

Masallı Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin əməkdaşlarının, şəhidin döyüşçü yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə daxili işlər orqanlarında xidmət etmiş həmkarımızın həyat və döyüş yolunun hər bir polis əməkdaşına, eləcə də Azərbaycan gənci üçün örnək olduğu, əziz xatirəsinin daim ehtiramla xatırlanacağı bildirilib.

Qeyd edək ki, Masallı rayonunun Xıl kəndində doğulmuş şəhid Elşad Hüseynov 1981-ci ildə ordudan tərxis olunduqdan sonra milis nəfəri kimi xidmətə başlayıb. O, 1986-cı ildə Bakı Xüsusi Orta Milis Məktəbinin (indiki Polis Akademiyası) qiyabi şöbəsinə daxil olub və 1989-cu ildə təhsilini başa vurub. 1992-ci ilin iyunun 15-də Fərrux kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Hüseynov Elşad Eynulla oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Masallı rayonunda Qəhrəmanın adına küçə var. Xıl kəndində büstü qoyulub.

# ORDUM DA VAR, YURDUM DA!

## *Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından 104 il ötür*




1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə – əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi.

Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey mərkəzinin yerləşdiyi ərazidə keçirilib. Qısa müddətdə Milli Ordu Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilmişdi. 1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 iyun Silahlı Qüvvələr Günü elan olundu.

... Qürurla deyə bilərik ki, ötən dövr ərzində tariximizə qızıl hərflərlə yazılan aprel döyüşləri, 30 il düşmən işğalında qalan torpaqlarımızın azad olunması ilə nəticələnən 44 günlük Vətən savaşı ordumuzun gücünün, xalqımızın əzmkarlığının, düşmənə nifrətinin və Ali Baş Komandana sevgisinin bariz nümunəsidir.

*"Polis"*

# Bu, həm də vətəndaşlıq borcudur






Koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunan karantin rejimində talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlar üçün nəzərdə tutulan qan banklarında qan azlığı yaranıb. Xəstə uşaqların həyatına yaranan təhlükənin qarşısını almaq üçün daxili işlər orqanlarının əməkdaşları da könüllü qanvermə aksiyalarına qoşulublar.

**Bu dəfə talassemiyalı və hemofiliyalı uşaqlara dəstək olmaq məqsədilə Nəsimi Rayon Mühafizə İdarəsində humanitar aksiya keçirilib.**

**B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun əməkdaşlarının iştirakı ilə idarədə təşkil olunan aksiyada 104 polis əməkdaşı qan verib.** Xüsusi tibb briqadasının həkim-hematoloqları donorları müayinə etdikdən sonra onlardan qan götürüblər.

Aksiya iştirakçısı olan polis əməkdaşları qan xəstəliklərindən əziyyət çəkən uşaqlara könüllü qan verməyin xeyirxah iş olduğunu bildirərək, belə nəcib aksiyalarda yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu söyləyiblər.

Humanitar aksiya çərçivəsində əldə edilən qan nümunələri Respublika Mərkəzi Qan Bankına göndərilib.

*"Polis"*

# BİZƏ YAZIRLAR...

"Mənzilimizdə baş verən qaz sızmasından zəhərlənən ailə üzvümü xəstəxanaya apararkən yolda tıxac səbəbindən ləngidikdə çox təlaşlandıq. Həmin an nə edəcəyimizi bilmirdik. Axı, zaman itkisindən faciə ilə üzləşə bilərdik. Belə bir durumda köməyimizə yetişən Azərbaycan Polisi bizi tez bir zamanda xəstəxanaya çatdırdı. Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşlarının gərgin səyi sayəsində həyatı təhlükəni atlatdıq. Dəfələrlə eşitmişdik, indi özümüz bunu yaşadıq. Şahidi olduq ki, polislərimiz hər vaxt, hər yerdə, hər cür təhlükədən bizi qoruyurlar". Bu sözlər Ceyranbatan qəsəbə sakini Pərviz Abdullayevin DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Xəzər rayon sakini Mətin Quliyevin də çətin anında köməyinə polis çatıb. Belə ki, işlədiyi ərzaq mağazasında baş vermiş oğurluq hadisəsinin üstü Azərbaycan Polisinin operativliyi və obyektivliyi sayəsində isti izlərlə açılıb. O, məktubunda təşəkkürünü belə ifadə edir: "Cəmiyyətdə üzləşdiyimiz hər hansı bir hüquq pozuntusuna qarşı daxili işlər orqanları əməkdaşlarının apardığı mübarizə, göstərmiş olduğu operativ reaksiya məni çox məmnun etdi. Əmin oldum ki, bu gün ölkəmizdə vətəndaşlarımızın görmək arzusunda olduğu polis imici formalaşıb".

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ŞUŞADAN ŞƏHADƏTƏ GEDƏN YOL

## Torpaqda izi, könüllərdə xatirəsi qalanlar unudulmurlar





Vətən müharibəsi şəhidi, baş çavuş Qəsəbov İsmayıl Nəbi oğlu 1991-ci il iyulun 6-da Qazax rayonunun Çaylı kəndində doğulub. Çaylı kəndində yerləşən şəhid Elşən Cəfərov adına 2 saylı tam orta məktəbdə təhsil alıb.

2009-cu ilin oktyabr ayında İsmayıl müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2011-ci ilin aprel ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tərkibində xidmət keçib. Ön mövqedə torpaqlarımızın müdafiəsində dayanıb. Müddətli həqiqi hərbi xidmət zamanı ona "kiçik çavuş" hərbi rütbəsi verilib.

Azərbaycan Ordusu sıralarından ehtiyata buraxıldıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmətlə bağlı qərar verib. İctimai təhlükəsizliyin təmin edilməsində polislə birgə fəaliyyət göstərən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarını seçib. 2012-ci ilin dekabr ayının 21-də Daxili Qoşunların Gəncədəki "N" saylı hərbi hissəsinin komendant bölüyündə komendant taqımı komandirinin müavini vəzifəsinə təyin edilib. Sonrakı hərbi xidməti qoşunların Bərdə rayonunda və Bakının Biləcəri qəsəbəsində fəaliyyət göstərən hərbi hissələrində keçib. Xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-sanitar, qumbaraatan köməkçisi, qumbaraatan, xüsusi əməliyyat qrupunun yarımqrupunda atıcı-qumbaraatan vəzifələri İsmayıla həvalə olunub. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldaraq "baş çavuş" hərbi rütbəsinədək yüksəlib, nümunəvi xidməti nəzərə alınaraq dəfələrlə mükafatlandırılıb.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsinin ilk günündən döyüşə atılıb. Xüsusi təyinatlının şərəfli döyüş yolu Murovdağdan başlayaraq Şuşayadək davam edib.

Vətən müharibəsi qazisi, II qrup əlil, istefada olan gizir Rasim Yaxin İsmayılla Biləcəridəki hərbi hissənin xüsusi təyinatlı dəstəsində eyni qrupda xidmət etdiklərini bildirdi.



Müdafiə Nazirliyinin xüsusi təyinatlılarının daxil olduqları qrupların tərkibində Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonları və Şuşa şəhəri istiqamətlərində döyüş əməliyyatlarında iştirak etdiklərini söyləyən Rasimin sözlərinə görə, 44 gün ərzində yalnız irəliləyiblər, düşmən onların qarşısında duruş gətirə bilməyib.

Rasim noyabrın 6-da Şuşaya hücuma keçdiklərini, şəhərin yaxınlığında şiddətli döyüşlərin getdiyini, düşmənin mövqelərinin nəzarətə götürüldüyünü diqqətə çatdırdı. Noyabrın 7-də Şuşanın yaxınlığında mövqeləndikləri ərazini işğalçılar tanklardan və minaatanlardan atəşə tutublar, bu zaman Rasim ağır yaralanıb, onun yanında olan İsmayıl isə şəhadətə qovuşub.

Vətən müharibəsi iştirakçıları, Biləcəridə yerləşən "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin mühafizə yarımqrupunda mühafizəçi baş çavuş Dəyanət İsayev, atəş təminatı qrupunun pulemyotçu baş çavuşu Paşa İmanov və qoşunların Zaqatala rayonundakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun pulemyotçusu çavuş Sənan Tanrıverdiyev də silahdaşlarının qorxmazlığından, ən böyük arzusundan-Şuşaya bayrağımızı sancmaqdan arzuladığından söhbət açdılar.

15 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə İsmayılın 7 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz noyabrın 12-də Çaylı kəndindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncamlarla baş çavuş İ.Qəsəbov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin Mərd və Uğur adlı övladları bizə əmanət qalıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

---

# "Toy-büsatlı" günah...

## Erkən nikahla mübarizəyə ictimaiyyət də qoşulmalıdır

Erkən nikahdan söz düşəndə istər-istəməz M.Sabirin "Xan dostu, amandı, qoyma, gəldi, didarı yamandı qoyma gəldi!" misrası ilə başlayan satirası yada düşür. Bir əsrdən artıq vaxt keçib, ancaq uşaq ikən ər evinə yola salınan qızcığazların dilindən səsləndirilən bu ictimai fəryad hələ də eşidilməkdədir. Sanki aramızda inadla çağdaş zamana qarşı "direniş" göstərən bir kəsim var...

Təbii ki, hüquqi və inzibati resursların belə hallarda dərhal işə düşməsi ilə qanun pozuntusunun qarşısı alınır və gerideqalmışlığın yenidən önümüzə keçməsinə imkan verilmir. Ancaq bu məsələnin davamlı olaraq inzibati nəzarətdə saxlanılmasına ehtiyac varsa, deməli, həmin kəsim çox ciddi ictimai qınaq hədəfinə də çevrilməlidir.

Elə bu günlərdə ictimaiyyət polisin daha bir məktəbli qızın erkən nikaha daxil olmasının qarşısını alması barədə xəbər eşitdi. Qazax RPŞ-yə Qarapapaq kəndində yetkinlik yaşına çatmayan şəxsə toy mərasimi keçirilməsi barədə daxil olmuş məlumat əsasında polis əməkdaşları həmin ünvana gedərək mərasimin keçirilməsini dayandırmışdı. Hər iki tərəfin valideynləri ilə profilaktiki söhbət



aparan həmkarlarımız yeniyetmə vaxtlarında qızların ailə qurmasının onların gələcəkdə fiziki və mənəvi sağlamlığı üçün ciddi təhlükə törədə biləcəyi barədə xəbərdarlıq ediblər.

Toy edilən qızın 15 yaşında olduğu məlum olmuşdu. Bundan bir neçə gün öncə də həmin rayonda 16 yaşlı məktəbli qız erkən nikaha sövq edilmişdi, ancaq polisin müdaxiləsi nəticəsində toyun qarşısı alınmışdı. Eləcə də Sabirabad rayonunun Qəzli kəndində toy mərasiminin keçirilməsi üçün qurulan çadır polisin iştirakı ilə sökülmüşdü.

Məsələ ilə bağlı DİN Baş İctimai Təhlükəsizlik İdarəsindən qəzetimizə bildirilib ki, bütün ölkə ərazisindəki polis idarə və şöbələrinə erkən nikahların qarşısını almaq üçün xüsusi göstəriş göndərilib və onun icrası rəhbərlik tərəfindən daim nəzarətdə saxlanılır.

İdarədən verilən məlumata görə, hər rüb ərzində vəziyyət təhlil edilir, nəticəyə uyğun olaraq da müvafiq addımlar atılır. Orta məktəblərin yuxarı sinif şagirdləri ilə keçirilən qabaqlayıcı-profilaktik tədbirlərin bir hissəsini erkən nikah mövzusu əhatə edir ki, həmin görüşlərdə polis əməkdaşları ilə yanaşı, dini qurumların, icra hakimiyyətinin və hüquq mühafizə orqanlarının nümayəndələri iştirak edir. Belə maarifləndirici tədbirlər isə çox böyük profilaktik nəticə ortaya qoyur. Məsələn, bu gün yetkinlik yaşına çatmayan qızların ərə verilməsi barədə ictimailəşən hadisələrin əksəriyyəti məhz maarifləndirmə işinin nəticəsi kimi özünü göstərir. Polis əməkdaşları yeniyetmələrə erkən nikahın tibbi və hüquqi fəsadlarını izah etməklə yanaşı, iradələri əleyhinə təhsildən yayındırılıb gəlin köçməyə məcbur edildikləri hallarda necə davranmalı olduqlarını da başa salırlar.

Belə görünür ki, polis bir çox arzuolunmaz halların qarşısını elə "uşaq gəlin" olmaq istəməyən yeniyetmələrin iştirakı ilə alır. Yeni nəsil köhnənin qalıqlarından xilas olmağa, bəzi valideynlər isə onları bir əsr geriyə çəkib atmağa can atır. Deməli, ötən əsrdən başlayan maarifpərvər hərakata bir an olsun belə ara vermədən, cəhalətin yenidən xortlamasına şərait yaratmadan davam etdirməkdə fayda var və polisin yerlərdə erkən nikahla bağlı keçirdiyi maarifləndirici iş bu mənada tam yerinə düşür.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

---



# Uşaqların hüquqları etibarlı qorunur

Bu günlərdə 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində "Uşaq əməyindən qanunsuz istifadə" adlı maarifləndirici xarakter daşıyan dəyirmi masa keçirilib. Uşaq əməyinin istismarı hallarının aşkar edilməsi, belə halların qarşısının alınması məqsədi ilə keçirilən tədbirdə bir sıra qeyri-dövlət qurumlarının təmsilçiləri və polis əməkdaşları iştirak ediblər.



Dəyirmi masada **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova ölkəmizdə uşaqların müdafiəsi, onların sağlam və firavan böyüyərək layiqli vətəndaş kimi yetişmələri üçün həyata keçirilən kompleks tədbirlərdən danışıb. Bu tədbirlərin bir istiqamətinin uşaq əməyinin istismarına qarşı mübarizəyə yönəldiyini qeyd edən** K.Ələkbərova polisin uşaq hüquqlarının qorunmasını hər zaman diqqət mərkəzində saxladığını, mütəmadi reydlər keçirdiyini və təqsirli şəxsləri məsuliyyətə cəlb etdiyini vurğulayıb.

Digər iştirakçılar da çıxışlarında polisin uşaq hüquqlarının qorunmasındakı fəaliyyətindən məmnun olduqlarını dilə gətiriblər.

Sonda dərnəyin azyaşlı üzvləri tərəfindən kiçik səhnəciklər nümayiş etdirilib, mövzu ilə bağlı suallar cavablandırılıb.

*"Polis"*

---

# Mübarizənin də, mübarizlərin də ön sırasındayıq!

Bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniya dinindən, dilindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. O, cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı səngidir, ailə və icmaları dağıdır. İctimaiyyətin




diqqətini daim narkomaniya ilə bağlı problemlərə yönəltmək məqsədilə BMT tərəfindən 26 iyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan olunub.

Qeyd edək ki, narkomaniya və narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə dövlət qurumları ilə bərabər cəmiyyət də aktiv iştirak etməlidir. İnanırıq ki, dövlətimizin narkomaniya ilə mübarizə sahəsində apardığı siyasət, dövlətin bütün strukturlarının, hüquq mühafizə orqanlarının həyata keçirdiyi tədbirlər gənc nəslin həm psixoloji, həm də fiziki sağlam böyüməsinə öz töhfəsini verəcək.

# Tamahının qurbanı oldu...




Dələduzların tələsinə düşməmək üçün polis və digər hüquq mühafizə orqanları vətəndaşlarımıza çağırış etsələr də, təəssüf ki, Bakı şəhər sakini Babək Əliyev kimi onlarla vətəndaş qurbana çevrilirlər. B.Əliyev Sirac Quliyev tərəfindən aldadılıb.

Onun şikayətindən sonra dələduzluq əməli törətməkdə şübhəli bilinən S.Quliyev Suraxanı RPİ-nin əməkdaşları tərəfindən saxlanılıb.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan, ev alqı-satqısından da xeyli gəlir götürən zərərçəkmiş qonşusu Sirac Əliyevin “diqqətindən kənar” qalmayıb. O, özünü “iş adamı” kimi qonşusuna təqdim edib. Onun etibarını qazanmaq üçün ondan bir neçə dəfə pul alıb, hətta vaxtından əvvəl qaytarıb.

**Suraxanı RPİ İstintaq şöbəsinin müstəntiqi, polis mayoru Rəşad Nuriyevin** sözlərinə görə, S.Quliyev Çin Xalq Respublikasından telefon aksessuarlarını gətirib satmaq adı altında və vərərək 2019-cu ilin may ayında ondan 92 min 500 manat alıb və qaytarmayıb.

Eyni üsulla, Sirac 2019-cu ilin avqust ayında Babəkin bacısının əri Ehram Əliyevin də etibarından sui-istifadə edərək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindən kompüter gətirərək satıb gəlir əldə edəcəyinə vəd verərək 52 min manat almaqla, hər ikisinə ümumilikdə 144 min 500 manat ziyan vurub. Dəymiş maddi ziyanın 74 min manatı zərəçəkmişlərə ödətdirilib.

İstintaq zamanı məlum olub ki, Sirac tanışı Zahid Məmmədovla qabaqcadan əlbir olaraq Çin Xalq Respublikasından gətirdiyi avadanlıqların karqoda olduğunu bildirərək, təkrarən Babək Əliyevdən əlavə olaraq 31 min 800 manatını da ələ keçirməyə cəhd edib. Lakin öz iradəsindən asılı olmayan səbəblərdən cinayət əməlini başa çatdıra bilməyib.

Azərbaycan Respublikasının CM-nin 178.3.2 və 29,178.2.1-cü maddələri ilə Sirac Quliyev barəsində cinayət işi başlamış və aidiyyəti üzrə baxılması üçün Bakı Ağır Cinayət Məhkəməsinə göndərilmişdir.

Yeri gəlmişkən, Suraxanı RPİ İstintaq Şöbəsi tərəfindən bu ilin son 5 ayı ərzində mülkiyyət əleyhinə olan cinayətlər üzrə vətəndaşlara dəyən 245 min 642 manat maddi ziyanın 234 min 767manatı, yəni 95,6 faizi ödətdirilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Yeni uğurun sorağı





**Bu günlərdə Fransada 4 dünya çempionunun iştirakı ilə təşkil olunan savat pro kəmər döyüşünə qatılan kikboksinq üzrə milli komandamızın üzvü, DİN İdman Cəmiyyətinin yetirməsi Turan Qafarov qalib olub.**

T.Qafarovun ilk rəqibi italiyalı Yuri Gentli olub. O, 2-ci final döyüşündə Fransa təmsilçisi Aziz Abdelaouiyə ilk raundun 1-ci dəqiqəsində nokautla qalib gələrək savat pro Dünya kəmərinə sahib çıxıb.

Qeyd edək ki, idmançımızı mötəbər turnirə kikboks üzrə yeniyetmələr və gənclər üzrə millimizin baş məşqçisi, DİN Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev hazırlayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# NARKOTİK TƏRKİBLİ BİTKİLƏR MƏHV EDİLİB



**Respublikanın bir sıra bölgələrində “Xaş-xaş-2022” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində narkotik tərkibli bitkilər aşkar edilərək məhv edilib.**

Belə ki, Qax Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən rayonun İngiloy Kötüklü kəndi ərazisində yabanı halda bitən ümumi çəkisi 1 ton 600 kiloqram olan 1818 ədəd, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş Böyük Tağlar kəndinin ərazisində yabanı halda bitmiş çəkisi 1 tondan artıq olan 2436 ədəd, Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Dağlı kəndi ərazisində yabanı halda bitən ümumi çəkisi 1 ton 230 kiloqram olan 2018 ədəd çətənə kolu kökündən çıxarılıb və yandırılaraq məhv edilib.



# Ənənədən yeniliyə...



ABŞ-da vətəndaşların odlu silah daşımaq hüququ qanuniləşdirilib. Odur ki, polisin işi ölkənin o tayında digər ölkələrə nisbətən həm çətin, həm də təhlükəlidir. Məhz buna görə də yerli polis əməkdaşları “xüsusi tədbirlər” həyata keçirməli olurlar.

Məsələn, polis əməkdaşı, hər hansı bir nəqliyyat vasitəsini saxlayarkən ovucları ilə onun arxa işığına və digər müxtəlif hissələrinə toxunmalıdır. Bu artıq tələb kimi formalaşıb.

İlk baxışdan adi gələn bu hərəkət sadə görünsə də, əslində çox dərin mənası var. Polis saxladığı avtomobildə öz barmaq izini qoyur.

Məqsəd polisin həyatına risk yaratacaq hər hansı bir hadisənin qarşısını vaxtında almaqdır. Məhz bu "toxunuş"ların köməyi ilə girov götürülən, xəsarət alan polis məmuru məhkəmədə sübutları təqdim edə, həmçinin cinayətkarın cəzalandırmasına nail ola bilər.

Hazırda müasir avadanlıqlardan isdifadə olunmasına baxmayaraq bu artıq ənənə halını alıb və polis əməkdaşları hələ də saxladıqları bütün avtomobillərdə barmaq izlərini buraxırlar.

*Natiq Abdullayev*




**Sabunçu RPİ 13-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini N.Əsgərovun bank hesabından 670 manatını oğurlamaqda şübhəli bilinən paytaxt sakini N.Əzizli müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan L.Zeynalova saxlanılıb.

Ətrafında aparılan tədbirlərlə onun cari ilin aprel-may ayları ərzində Velədi kəndində 17 nəfəri aldadaraq onlardan ümumilikdə 15 min 900 manat pul alması da müəyyən olunub.

◆◆◆

**Şirvan ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində A.Bədirovun evinə baxış zamanı oradan “AK-103” markalı avtomat silahı aşkar edilərək götürülüb.

◆◆◆

**Sabirabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Əsədli kənd sakini R.Qurbanovun həyətindən kultivasiya yolu ilə yetişdirilən 108 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə 5,4 kiloqram marixuana aşkar edilərək götürülüb.

◆◆◆

**İsmayıllı RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki mağazaların birindən 2 min 80 manat dəyərində qızıl boyunbağını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Bərdə rayon sakini, əvvəllər məhkum olunmuş E.İmanov saxlanılıb.

◆◆◆

**Sumqayıt ŞPİ 3-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Corat qəsəbə sakini R.Əsgərovdan heroin və metamfetamin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan əlavə 105 qram heroin, 120 qram metamfetamin, 47 qramdan artıq marixuana və 2 ədəd elektron tərəzi götürülüb.




# Dərinizi qoruyun...

Əksəriyyətin “ala” adlandırdığı ağ ləkələr son zamanlar dəridə daha çox rast gəlinən problemlərdən sayılır. Onun nədən yaranması barədə çoxları məlumatlı deyil. Bəziləri isə hesab edir ki, “ala” sağalmaz dəri xəstəliyidir. Yəni ağ ləkə yaranıbsa, bu, bütün ömür boyu belə də qalacaq.

Ağ ləkələr dəridə müxtəlif xəstəliklərin təsirindən, eləcə də hipopiqmentasiya və ya depiqmentasiya səbəbiylə yaranır. Lakin ağ ləkə verən müxtəlif dəri xəstəlikləri fərqli mexanizmlərlə dəridə hipopiqmentasiya və ya depiqmentasiya verir.

Əsasən uşaqlarda ağ sahələr anadangəlmə meydana gələ bilər. İki yaşına qədər yaranan ləkələr əksərən anadangəlmə olur və genetik pozuntu ilə əlaqəli sayılır. Məktəbə qədər dövrdə, məktəb dövründə, yeniyetməlikdə və böyüklərdə yaranan ağ ləkələr qazanılmış hesab olunur. Qazanılmış ağ ləkələr arasında ən ciddi olan xəstəlik xalq arasında ala xəstəliyi olaraq bilinən vitiliqo problemidir. Vitiliqo xəstəliyi dərinin autoimmun xəstəliyidir və proqnozu heç də yaxşı deyil.

Vitiliqo xəstələrində dərinin istənilən yerində depiqmentasiya ilə özünü biruzə verən ağ ləkələr yaranır. Bu ləkələr əsasən göz, dodaq ətraflarında, dizlərdə, dirsəklərdə bəldırların ön tərəfində, əllərdə əmələ gəlir.

Depiqmentasiya sahələri xəstəliyin ən ağır formalarında bütün bədəni əhatə edə bilər. Buna yaygın generalizə və ya total vitiliqo deyilir. Vitiliqo xəstələrində saçlarda, qaşlarda və kirpiklərdə tük ağarması da görülə bilər. Ağ ləkələr şəklində özünü göstərən vitiliqo xəstəliyi sadəcə, dərinin problemi deyil. Bu xəstələrdə paralel şəkildə daxili orqanların autoimmun mənşəli problemləri də yarana bilər.

Vitiliqo xəstələrinin müalicəsi çətin olsa da, mümkünsüz deyildir. Müasir təbabət bu xəstəliyin müalicəsində müxtəlif preparatlar təklif edir. Onları hər bir xəstə qəbul etməlidir. Ən azı xəstəliyin yayılmaması üçün çalışılmalıdır. Dermatoloq həkimin təyin etdiyi yerli müalicələr həkim nəzarətində tətbiq edilməlidir. Günəşdən həm fiziki, həm də SPF kremləri hesabına qorunmaq lazımdır. Stres faktorları və dəriyə tətbiq edilən travmalardan uzaq durulmalıdır. Depiqmentasiya sahələri Günəş şüalarının mənfi təsirinə qorunmasız olduğu üçün o sahələrdə dəri xərçəngi yaranma riski yüksəkdir. Ona görə ağ ləkələr Günəşdən xüsusən qorunmalıdır.

*Ruhiyyə Əliyeva*

## STATİSTİKA

## Kriminal icmal

- İyunun 14-dən 22-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 446-nın, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 89-nun açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 416, o cümlədən borclu şəxs qismində axtarışda olan 274 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 19 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 22 nəfər ölüb, 7 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 228, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 22 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik